# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 14** **Bakı şəhəri, 21 yanvar 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2006-cı il 27 yanvar tarixli 25 nömrəli, "Azərbaycan Respublikasında elektron imza və elektron sənədlə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2006-cı il 28 yanvar tarixli 27 nömrəli, "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2006-cı il 9 fevral tarixli 40 nömrəli, "GOV.AZ domeninin inzibatlaşdırılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2006-cı il 31 mart tarixli 91 nömrəli, "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2007-ci il 1 fevral tarixli 22 nömrəli, "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və qanunvericiliyə uyğun olaraq hava daşımalarına dair müqavilələrin rəsmiləşdirilməsi və sənədlərin tərtib edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2007-ci il 11 iyun tarixli 94 nömrəli və "Milli nişanların və qeydiyyat nişanlarının hava gəmisində təsviri Qaydası"nın təsdiq edilməsi haqqında" 2007-ci il 13 iyun tarixli 96 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə**

"Azərbaycan Respublikasında nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanının 11.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 27 yanvar tarixli 25 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 54; 2009, № 10, maddə 846; 2012, № 12, maddə 1358; 2014, № 2, maddə 201, № 6, maddə 747; 2016, № 5, maddə 955; 2017, № 4, maddə 620) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "Səfərbərlik planlarına uyğun olaraq binaların, tikililərin, kommunikasiyaların, torpaq sahələrinin, rabitə, nəqliyyat və digər vasitələrin ayrılması ilə əlaqədar təşkilatlara vurulan zərərin əvəzinin dövlət tərəfindən ödənilməsi Qaydası"nın 3-cü hissəsində "Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Nəqliyyat" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Müharibə dövründə ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə binaların, tikililərin, nəqliyyat vasitələrinin və mülkiyyətində olan digər əmlakın təqdim edilməsi ilə əlaqədar vətəndaşlara vurulan zərərin əvəzinin dövlət tərəfindən ödənilməsi Qaydası"nın 3-cü hissəsində "Nəqliyyat" sözü "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş "Ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə təşkilatların və vətəndaşların mülkiyyətində olan nəqliyyat vasitələrinin və digər əmlakın verilməsi ilə bağlı vurulmuş zərərin əvəzinin dövlət tərəfindən ödənilməsi Qaydası"nın 3-cü hissəsində "Nəqliyyat" sözü "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin.

**2.** "Azərbaycan Respublikasında elektron imza və elektron sənədlə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 27 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 56; 2008, № 1, maddə 39; 2014, № 6, maddə 747, № 9, maddə 1124; 2016, № 1, maddə 173; 2017, № 3, maddə 480) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş "Elektron imzanın yoxlanılma Qaydası"nın 3.2-ci bəndində "Rabitə və Yüksək Texnologiyalar" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Elektron imza üçün sertifikat verən və imzaların istifadəsi üzrə xidmətlər göstərən mərkəzin (sertifikat xidmətləri mərkəzinin) qeydiyyatı və akkreditə edilməsi Qaydaları" üzrə:

2.2.1. 1.2-ci bənddə "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (bundan sonra – RYTN)" sözləri "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (bundan sonra – NRYTN)" sözləri ilə əvəz edilsin;

2.2.2. mətn üzrə ismin müvafiq hallarında "RYTN" abreviaturası ismin müvafiq hallarında "NRYTN" abreviaturası ilə əvəz edilsin;

2.2.3. Qaydalara əlavədə "Rabitə və Yüksək Texnologiyalar" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin;

2.3. həmin Qərarla təsdiq edilmiş "Sertifikat xidmətlərinin göstərilməsi, sertifikatın verilməsi və reyestrin aparılması Qaydaları"nın 3.14-cü bəndinin birinci və ikinci cümlələrində "Rabitə və Yüksək Texnologiyalar" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə, 11.3-cü bəndində "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə (bundan sonra – RYTN)" sözləri "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə (bundan sonra – NRYTN)" sözləri ilə və 11.4-cü bəndində "RYTN" abreviaturası "NRYTN" abreviaturası ilə əvəz edilsin.

**3.** "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 40 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 188; 2008, № 1, maddə 46; 2009, № 10, maddə 853; 2016, № 4, maddə 780; 2018, № 7 (II kitab), maddə 1625) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissədə "Nəqliyyat" sözü "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nın 1.3-cü bəndinin birinci və ikinci cümlələrində, 2.2-ci, 3.1-ci, 3.5-ci, 3.7-ci və 3.8-ci bəndlərində ismin müvafiq hallarında "Nəqliyyat Nazirliyi" sözləri ismin müvafiq hallarında "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 31 mart tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 310; 2013, № 2, maddə 190; 2014, № 6, maddə 747; 2016, № 9, maddə 1585; 2017, № 7, maddə 1493) ilə təsdiq edilmiş "GOV.AZ domeninin inzibatlaşdırılması Qaydaları"nın 2.3-cü bəndində "Rabitə və Yüksək Texnologiyalar" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 182; 2009, № 2, maddə 144; 2014, № 2, maddə 216, № 6, maddə 747; 2016, № 9, maddə 1585) ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nın 1.4-cü bəndində "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (bundan sonra – RYTN)" sözləri "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (bundan sonra – NRYTN)" sözləri ilə və 1.7-ci bəndində "Rabitə və Yüksək Texnologiyalar" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 11 iyun tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 699; 2011, № 4, maddə 373; 2016, № 12, maddə 2221; 2017, № 9, maddə 1749) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və qanunvericiliyə uyğun olaraq hava daşımalarına dair müqavilələrin rəsmiləşdirilməsi və sənədlərin tərtib edilməsi Qaydası"nın 1.3-cü bəndində "Dövlət Mülki Aviasiya Administrasiyası" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 13 iyun tarixli 96 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 701; 2016, № 9, maddə 1585) ilə təsdiq edilmiş "Milli nişanların və qeydiyyat nişanlarının hava gəmisində təsviri Qaydası"nın 1.3-cü, 2.4-cü bəndlərində, 2.5-ci bəndinin "Qeydlər"inin 1-ci və 2-ci hissələrində, 3.1-ci bəndində, 3.2-ci bəndinin birinci və ikinci cümlələrində, 3.4-cü bəndinin "Qeydlər"inin 2-ci hissəsində, 3.9-cu bəndində ismin müvafiq hallarında "Dövlət Mülki Aviasiya Administrasiyası" sözləri ismin müvafiq hallarında "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi" sözləri ilə əvəz edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2019.- 24 yanvar.- S. 4.